*UOT 373.3/5.*

***Sevda Hidayət qızı Axundova***
*Xəzər Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə dissertantı*
*https://orcid.org/0000-0001-9192-2307*
https://doi.org/10.69682/arti.2025.92(1).90-94

# ŞƏHİD VƏ QAZİ AİLƏLƏRİ İLƏ KOLLECLƏRDƏ APARILAN İŞ

***Севда Гидаят гызы Ахундова***
*диссертант по программе доктора философии*
*Университета Хазар*

# РАБОТА, ПРОВОДИМАЯ В КОЛЛЕДЖАХ С СЕМЬЯМИ ШЕХИДОВ И ВЕТЕРАНОВ

***Sevda Gidayat Akhundova***
*doctorial student in the program of doctor of philosophy*
*at Khazar University*

# WORK WITH FAMILIES OF MARTYRS AND VETERANS IN COLLEGES

**Xülasə.** Vətən müharibəsi adı ilə tariximizin ən şanlı səhifələrindən birinə çevrilmiş İkinci Qarabağ müharibəsi Azərbaycanın möhtəşəm Qələbəsi ilə nəticələndi. Bu tarixi Qələbə şəhidlərimizin canları, qazilərimizin sağlamlığı bahasına, cəsur zabit və əsgərlərimizin qəhrəmanlığı, şücaəti nəticəsində əldə olunub. Şübhəsiz ki, dövlətimiz Vətən uğrunda canından keçmiş şəhidlərimizin ailələrinə, eləcə də qazilərimizə, həmçinin torpaqlarımızın düşmən işğalından azad olunmasında qəhrəmanlıq göstərmiş bütün döyüşçülərimizə diqqət və qayğı ilə yanaşır.Bu gün Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biri də Vətən Müharibəsində şəhid olmuş döyüşçülərimizin ailə üzvlərinə, qazi və hərbçilərimizə diqqət və qayğının göstərilməsidir. Qeyd etmək lazımdır ki, bu sahədə dövlətin institusional təşəbbüsləri xüsusi əhəmiyyət kəsb edir. Bu təşəbbüslər işğaldan azad edilmiş ərazilərin yenidən dirçəldilməsi və digər bu kimi dövlət əhəmiyyətli işlərin həyata keçirilməsində vacib rol oynayır. Tədqiqatın əsas məqsədi təhsil sektorunda xüsusi ilə də kolleclərdə aparılan işlərin araşdırılmasıdır.
***Açar sözlər:*** *Vətən müharibəsi, sosial təminat, təhsil, kollec*

**Аннотация.** Вторая Карабахская война, ставшая одной из самых славных страниц нашей истории под названием Отечественная война, завершилась великой Победой Азербайджана. Эта историческая Победа была достигнута ценой жизней наших шехидов, здоровья наших ветеранов, героизма и мужества наших доблестных офицеров и солдат. Несомненно, наше государство уделяет внимание и заботу семьям наших шехидов, погибших за Родину, нашим ветеранам, а также всем нашим воинам, проявившим героизм при освобождении наших земель от вражеской оккупации. Следует отметить, что институциональные инициативы государства в этой сфере имеют особое значение. Эти инициативы играют важную роль в возрождении освобожденных территорий и реализации других подобных государственно-значимых работ. Основная цель исследования - изучить работу, проводимую в сфере образования, особенно в колледжах.
***Ключевые слова:*** *Отечественная война, социальное обеспечение, образование, колледж*

**Abstract.** The Second Karabakh War, which became one of the most glorious pages of our history under the name of the Patriotic War, ended with the great Victory of Azerbaijan. This historic Victory was achieved at the cost of the lives of our martyrs, the health of our veterans, the heroism and bravery of our brave officers and soldiers. Undoubtedly, our state pays attention and care to the families of our martyrs who died for the Motherland, as well as to our veterans, as well as to all our warriors who showed heroism in liberating our lands from enemy occupation. care and attention to our veterans and military personnel. It

should be noted that the institutional initiatives of the state in this field are of particular importance. These initiatives play an important role in the revival of the liberated territories and the implementation of other such state-important works. The main purpose of the study is to examine the work carried out in the education sector, especially in colleges.

***Keywords:*** *Civil war, social security, education, college*

Azərbaycanın davamlı səciyyə daşıyan dərin məzmunlu sosial siyasətində canlarını Vətən uğrunda fəda etmiş şəhidlərin ailələrinə və müharibə əlillərinə hərtərəfli qayğı göstərilməsi xüsusi yer tutur. Prezident İlham Əliyev bu istiqamətdə ölkəmizdə aparılan siyasətin özəlliyinə diqqət çəkib. "Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvləri dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır və biz bunu bu gün əyani şəkildə görürük. (4) Öz sağlamlığını itirmiş, yaralanmış qazilər bütün dövlət orqanları tərəfindən daim qayğı ilə əhatə olunmalıdır və biz bunu təmin edirik. Onu da bildirməliyəm ki, bizdə bu sahədə tətbiq olunan prinsiplər öz unikallığı ilə seçilir", – deyə dövlətimizin başçısı vurğulayıb. Prezident İlham Əliyev: Həyat və gördüyümüz işlər onu göstərir ki, bu sahədə Azərbaycanda aparılan siyasət ən humanist siyasətdir, ən ədalətli siyasətdir və vicdanlı siyasətdir.

Respublikamızda müvafiq kateqoriyadan olan insanlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi və vətəndaş məmnunluğunun artırılması məqsədilə digər tədbirlər də həyata keçirilir. Prezident İlham Əliyev 25 iyun 2021-ci il tarixində "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Fərman imzalayıb. Vahid Əlaqələndirmə Mərkəzlərində 7 qurum üzrə 26 xidmət göstərilir.

Azərbaycan dövlətinin şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən tədbirlər sırasında onların dövlət vəsaiti hesabına tikilən mənzillərlə, fərdi evlərlə və avtomobillərlə təmin olunması da xüsusi yer tutur. Bu da Azərbaycana xas olan bir nümunədir. Müqayisələr aparaq. Müharibələr dünyanın hər yerində baş verir. Ancaq hansı ölkədə döyüşlərdə həlak olanların yaxınlarına və yaxud müharibə əlillərinə dövlət hesabına mənzillər, avtomobillər təqdim olunur? Belə ölkələrin siyahısı çox məhduddur və yaxud heç yoxdur. Götürək, işğalçı Ermənistanı. Forpost dövlət ötən il sentyabrın 27-dən noyabrın 10-dək davam edən müharibədə Azərbaycanla müqayisədə 2-3 dəfə çox itki verib. Verilən məlumatlara görə, işğalçı Ermənistan İkinci Qarabağ müharibəsində 7-8 min civarında insan itkisi verib, reallıqda isə düşmən tərəfin canlı qüvvə itkisi daha böyük rəqəmlərlə ölçülür. Lakin bu ölkədə müharibədə ölənlərin ailələrinin birinə də heç daxma da verilməyib. Azərbaycanın yanaşması isə tamam fərqlidir. Ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin mənzillərlə təmin olunması proqramı uğurla həyata keçirilir. Xatırladaq ki, Prezident İlham Əliyev 25 yanvar 2021-ci il tarixində "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam imzalayıb. (1)Bu sənəd 2020-ci ildə Ordumuzun həyata keçirdiyi hərbi əməliyyatlar zamanı şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımızın ailələrinin və bu müharibə ilə əlaqədar əlilliyi müəyyən edilən şəxslərin də mənzil və ya fərdi evlərlə təminatını nəzərdə tutur. Müvafiq proqramın Bakıda, Sumqayıtda, Abşeron rayonunda cari ilin sonunadək tam icra edilməsi planlaşdırılıb. Respublikamızda Prezident İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq cari ildə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 3 minədək mənzil və fərdi ev təqdim olunacaq. O cümlədən Bakı, Sumqayıt, Abşeron, Lənkəran, Samux rayonlarında 2500 mənzilin, digər rayonlarda isə 500 fərdi evin tikintisi nəzərdə tutulub. 2021-ci ilin əvvəlindən bəri Ramana, Ümid və Xocasən qəsəbələrində 850 mənzil tikilərək şəhid ailələrinin və müharibə əlillərinin istifadəsinə verilib. Xocasən qəsəbəsində inşa olunan və Prezident İlham Əliyevin iştirakı ilə açılışı keçirilən kompleks 810 mənzildən ibarətdir. Burada 15 ədəd doqquzmərtəbəli bina inşa olunub. Bu dəfə 300 şəhid ailəsi və müharibə əlili mənzillə təmin olunub. Şəhid ailələrinin və müharibə əlillərinin mənzillərlə təmin olunmasını ölkəmizdə aparılan siyasətin təzahürü kimi səciyyələndirən Prezident İlham Əliyev "Mən bu rəqəmləri səsləndirməklə bir daha göstərmək

istəyirəm ki, Azərbaycanda bu sahədə görülmüş işlər nümunəvi xarakter daşıyır. Mən ölkəmizi hansısa bir başqa ölkə ilə müqayisə etmək istəmirəm. Ancaq həyat və gördüyümüz işlər onu göstərir ki, bu sahədə Azərbaycanda aparılan siyasət ən humanist siyasətdir, ən ədalətli siyasətdir və vicdanlı siyasətdir", – deyə vurğulayıb. Bəhs olunan tədbirdə, həmçinin 50 müharibə əlili və onlara bərabər tutulan şəxslərə avtomobillər təqdim olunub..

Şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına dövlət qayğısının ən bariz örnəyi Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə "YAŞAT" Fondunun yaradılması olub. Belə ki, "YAŞAT" Fondu bu istiqamətdə dövlətin institusional təşəbbüsü olaraq öz fəaliyyətində humanitar missiyanı əks edir. Vətən Müharibəsində şəhid olmuş və yaralanmış şəxslərin ailələrinə baş çəkmək üçün "ASAN xidmət" əməkdaşlarından və könüllülərindən ibarət bütün rayonları əhatə edən qrup formalaşdırılıb və onlar müvafiq təlimlərə cəlb edilərək artıq öz vəzifələrinin icrasına başlayıblar. "YAŞAT" Fondu, sözün əsl mənasında, cəmiyyət və dövlət birliyinin təcəssümüdür. Böyük humanitar missiyanı özündə ehtiva edən Fonda könüllü ödəmələr dayanmadan davam edir. Ölkə Prezidenti cənab İlham Əliyevin 7 yanvar 2021-ci il tarixli Fərmanı ilə yerli icra hakimiyyəti orqanlarının strukturunda Vətən Müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbələrinin yaradılması nəzərdə tutulub. Bu, ölkəmizdə sosial siyasətin şaxələnməsi və institutlaşdırılması istiqamətində atılan son dərəcə önəmli bir addımdır. Bu şöbələrin yaradılması dövlətin müvafiq xidmətlərindən vətəndaşların faydalanmaq imkanlarını artırır. (3)

Dövlət xidmətlərinin əlçatanlığı isə Vətən Müharibəsi iştirakçıları və şəhid ailələrinin sosial problemlərinin qısa müddət ərzində həllinə xidmət edir. Dövlətin mühüm institusional təşəbbüslərindən daha biri kimi müraciətlərə baxılmasında obyektivliyin təmin edilməsi üzrə xüsusi qurumların yaradılmasını qeyd etmək olar. Bilirik ki, Vətən Müharibəsində iştirak etmiş hər bir hərbiçin müraciətinə dövlət həssaslıqla yanaşır. Buna görə də Müdafiə Nazirliyində səfərbərlikdən tərxis olunan şəxslərin müraciətlərinə baxılması üzrə xüsusi komissiya yaradılıb. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən komissiya tərəfindən cəmi bir neçə gün ərzində 800-ə yaxın müraciətə baxılıb və həll olunması üzrə müvafiq tədbirlər görülüb. Həmçinin komissiyanın bölgələrdə səyyar qrupları da fəaliyyət göstərir. Məsələn, Füzuli rayonu ərazisində fəaliyyət göstərən belə bir səyyar qrup tərəfindən qısa zamanda 100-dən artıq müraciətə baxılıb, onların böyük hissəsi yerində həll olunub, digər müraciətlərin həll olunması üzrə müvafiq tədbirlər görülüb. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 yanvar tarixli Fərmanı ilə işğaldan azad olmuş ərazilərimizin dirçəldilməsi məqsədilə yaradılmış Qarabağ Dirçəliş Fondu dövlətimizin bir digər mühüm strateji addımlarından biridir. Azərbaycan xalqı böyük Zəfərlə ərazilərini Ermənistan işğalından azad edərək, tarixinin ən yaddaqalan və şanlı dövrünə qədəm qoydu.

Ölkənin ərazi bütövlüyünün bərpası dövlətimiz üçün beynəlxalq hüququn və milli-mənəvi dəyərlərin aliliyinin nümayişidir. Otuz ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən həyata qaytarılması ölkənin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biri olacaq. Qarabağ Dirçəliş Fondunun yaradılması dövlətin Qarabağ siyasətinin təzahürüdür. Fondun xətti ilə mərkəzləşdirilmiş qaydada görüləcək işlər nəticəsində ərazilərimiz tamamilə yenidən qurulacaq, orada infrastruktur yaradılacaq, müasir şəhər, qəsəbə və kəndlər tikiləcək, bölgəyə dinc, təhlükəsiz, rahat həyat gələcək. Məcburi köçkünlərimiz daimi yaşayış yerlərinə qayıdacaqlar. Dirçəliş prosesində yeni iş yerləri açılacaq, ölkə həyatının bütün digər sahələrində də sürətli inkişafa nail olunacaq. Bütün bunlar insanların həyat şəraitinin daha da yaxşılaşdırılmasına önəmli töhfələr verəcək. Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində zərər çəkmiş mülki əhali də dövlətimizin qayğısı ilə maksimum əhatə olunur. Ermənistanın silahlı qüvvələri hərbi əməliyyatların davam etdiyi dövrdə Azərbaycan ərazisində mülki obyektləri, yaşayış binalarını hədəfə alırdılar. Bu hərbi cinayət əməllərinin nəticəsində hətta cəbhə bölgəsindən çox uzaqda yerləşən kənd və qəsəbələrimizdə, şəhərlərimizdə dinc insanlarımız öz həyatlarını itirmiş, əhaliyə böyük məbləğlərdə maddi ziyan dəymişdir. Bu gün Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi prosesi Azərbaycan dövləti-

nin tam nəzarətindədir. Mülki əhaliyə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı Azərbaycan hökuməti tərəfindən sistemli tədbirlərin görülməsi məqsədilə xüsusi Dövlət Komissiyası yaradılıb. Tərtərdə, Gəncədə, Bərdədə və digər şəhər və rayonlarımızda zərər çəkən vətəndaşlar dövlət qayğısı ilə əhatə olunmalıdır. Zərərçəkmiş mülki əhalinin zəruri sosial ehtiyaclarının təmin edilməsi və onların məişət və şəxsi əşyalarına dəymiş ziyanın aradan qaldırılması məqsədilə dövlət maliyyə yardımları göstərəcəkdir. Dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000 manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500 manat digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə isə 1000 manat məbləğində yardım göstərilməsi nəzərdə tutulmuşdur. Qısa müddət ərzində 2795 şəhidin 14 min ailə üzvü və 10 minədək yaralanan şəxslə görüşlər keçirilib. Onların birinci dərəcəli ehtiyacları müəyyənləşdirilib. Fond tərəfindən həyata keçirilmiş ödənişlərin əsas istiqamətləri məişət şəraitinin yaxşılaşdırılması, tibbi xərclərin ödənilməsi, borc öhdəliklərinin qarşılanması, təhsil xərclərinin ödənilməsini əhatə edib. Öhdəliyə götürülmüş şəxslərin sayı 5275 nəfərdir. Reallaşdırılmış ödənişlərin sayı 4141-dir. Fondun şəffaf fəaliyyəti dövlətə ictimai etibarı artırır. Fonda daxil olan vəsait ilə əlaqədar məlumatlar mütəmadi qaydada ictimaiyyətə təqdim olunur. İndiyədək fondda 24 804 936 manat toplanıb. Həmin vəsaitdən 15 036 831,70 manat fiziki şəxslər, 9 768 105,16 manat isə hüquqi şəxslər tərəfindən ödənilib.

Prezident cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyası tərəfindən Müdafiə Nazirliyinin rəsmi siyahısında yer almış şəhidlərdən banklar qarşısında kredit öhdəliyi olan 830 şəhidə aid 1503 kredit üzrə həm əsas borcun, həm də faizlərin silinməsi təmin edilib. Həmçinin şəhidlərimizin ailə üzvlərinə aid olan 286 sayda, xəsarət almış hərbçilər üzrə 1 323 sayda kreditin, şəhid olmuş 15 nəfər və ciddi zərər çəkmiş 9 nəfər mülki şəxsin borc öhdəliklərinin tamamilə silinməsi təmin olunub. Bununla yanaşı Vətən müharibəsi iştirakçılarının qayğılarının diqqət mərkəzində saxlanması məqsədilə Nazirlər Kabinetinin 2021-ci il 30 yanvar tarixli Qərarına əsasən, (2) Vətən müharibəsi iştirakçılarına "Müharibə veteranı" adının verilməsi işinin təşkili üzrə də xüsusi komissiya yaradılaraq fəaliyyətə başlayıb. Bütün bunlardan əlavə olaraq qeyd etmək istəyirəm ki, döyüşlərdə iştirak etmiş hərbçilərə psixoloji yardım da göstərilir və bu proses davam etdiriləcəkdir. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda iştirak etmiş hərbi qulluqçulara və şəhid ailələrinə operativ, vaxtında, keyfiyyətlə və əlaqəli şəkildə psixoloji yardım göstərilməsini təmin etmək məqsədilə komissiya yaradılıb.

Şəhid və qazi ailəsi üzvlərinin sosial müdafiəsinin, məşğulluğunun təmin edilməsi məqsədilə Təhsil Nazirliyi sisteminə daxil olan dövlət ümumi təhsil müəssisələrində müvafiq vakansiyalara işə qəbul prosesi dayandırılıb və həmin kateqoriyadan olan şəxslərə üstünlük verilməsi üçün tədbirlər həyata keçirilib. Belə ki, Təhsil Nazirliyinə şəhid və qazi ailəsi üzvləri tərəfindən işə qəbulla əlaqədar 56 müraciət daxil olub, müraciətlər araşdırıldıqdan və vakant yerlərlə bağlı həmin şəxslərlə əlaqə saxlanılaraq rəylər alındıqdan sonra 23 müraciət müsbət həllini tapıb.

Kolleclərdə aparılan işlərdən bəhs edərkən vacib məsələlərdən biri də şəhid ailələrinin və qazilərin məşğulluğunun təmin edilməsi olduğunu nəzərə çatdırmaq istəyərdim. Bu məqsədlə dövlət tərəfindən işəgötürənlərə çağırış edilib. Həyata keçirilən aktiv məşğulluq tədbirləri çərçivəsində son kolleclərdə Şəhid və qazi ailələri qrupuna daxil şəxslər işlə təmin olunub, o cümlədən şəhid ailəsinin üzvü və qazi özünüməşğulluq proqramına cəlb edilib. Kollec rəhbərlikləri tərəfindən şəhid ailəsi üzvlərinin və Vətən müharibəsində yaralanmış qazilərin məşğulluğunun təminatında daha fəal iştirakının təşviqi məqsədilə böyük sosial əhəmiyyətli daşıyır. Qeyd edək ki, marafona ölkə üzrə bütün kolleclərin işəgötürənləri qoşulub, Statistik məlumatlara əsasən qeyd edə bilərik ki, 100-dək vakansiya təqdim olunub və 50-dək şəxs işə götürülüb.

Kolleclərdə mütəmadi olaraq görüşlər keçirilərək, şəhid və müharibə veteranları ailələri ilə işlə bağlı çətinliklər və həll yolları müzakirə olunub. Bu cür görüşlərin mütəmadi keçirilməsinin vacibdir. Nəticə etibarı ilə bu istiqamətdə layihələr şəhid ailələri və müharibə iştirakçıları üçün həm hüquqi, həm də psixoloji dəstəyi təmin etmək məqsədi ilə həyata keçirilir və gə-

ləcəkdə də davam etdirilməsi planlaşdırılır. Bu baxımdan, şəhid ailələri və müharibə əlilləri üçün planlı və ölçülü layihələrin hazırlanmasına kolleclərdə diqqət ayrılması yuxarıda qeyd olunan şəxslərə diqqət və qayğının daha da artırılması istiqamətində təqdirəlayiq bir addım olar.

**Problemin aktuallığı.** Şəhid və qazi ailələri ilə bağlı aparılan işlər Azərbaycan dövlətinin gücünü göstərir, digər tərəfdən isə ölkəmizdə aparılan siyasətin mahiyyətini əks etdirir. Azərbaycan sosial dövlətdir, ölkəmizdə aparılan siyasətin mərkəzində vətəndaşların maraqları dayanır. Azərbaycan dövləti respublikamızın müharibədən təzə çıxmasına və qlobal pandemiya səbəbindən dünyada yaşanan çətinliklərə rəğmən, özünün dərin məzmunlu sosial siyasətinə sadiqlik nümayiş etdirir. Ölkəmizdə postmüharibə dövründə hər hansı bir sosial layihə ixtisara salınmayıb, əksinə insanların həyat şəraitinin yaxşılaşmasına, gəlir imkanlarının artmasına hesablanan layihələrin əhatə dairəsi daha da genişlənib.

**Problemin elmi yeniliyi.** Şəhid və qazi ailələri ilə kolleclərdə aparılan iş prosesi ətraflı şəkildə araşdırılaraq məşğulluğun təmin edilməsi yönümdə aparılan işlər müəyyən edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Kolleclərdə şəhid ailələri və müharibə iştirakçıları üçün həm hüquqi, həm də psixoloji dəstəyi təmin etmək məqsədi ilə layihələr həyata keçirilir və gələcəkdə də davam etdirilməsi sahəsində olduqca əhəmiyyətlidir.

**Ədəbiyyat:**


1. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Prezident İlham Əliyev 25 yanvar 2021-ci il tarixli fərmanı
2. "Vətən müharibəsi iştirakçılarına" "Müharibə veteranı" adının verilməsi haqqında Nazirlər Kabinetinin 2021-ci il 30 yanvar tarixli Qərarı
3. "YAŞAT" Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanı
4. Hüseynov, H. Ə. Sosial təminat sisteminin təkmilləşdirilməsi istiqamətləri : iqtisad üzrə fəlsəfə dok. ... dis. avtoreferatı: 5308.01 / H. Ə. Hüseynov; Azərbaycan Dövlət Aqrar Universiteti. - Gəncə, 2016.
5. Nağıyev Ə.T., Mürşüdov R.İ. Sosial müdafiənin təkmilləşdirilməsinin əsas istiqamətləri. - Bakı: Səda, - 2002
6. Nağıyev Ə.T., Mütəllimova V.A, "Sosial inkişafın iqtisadi parametrləri". - Bakı: Səda, - 2013.


**Redaksiyaya daxil olub:** 15.01.2025